# TARİX, ETNOQRAFİYA VƏ SİYASİ ELMLƏR

**UOT 930.22**

## ÇİNİN ABŞ VƏ İRANA MÜNASİBƏTDƏ SİYASİ MANEVRLƏRİ: İRAN KÖRFƏZİ DİLEMMASI

**Ülkər ƏLİYEVA-ABDULLAYEVA***

***Açar sözlər:*** *ABŞ-Çin münasibətləri, ABŞ-İran ziddiyyətləri, İrana qarşı sanksiyalar, ticarət savaşları*

***XÜLASƏ***

Məqalədə ABŞ-Çin və ABŞ-İran ziddiyyətlərinin Çinin İran siyasətinə təsiri, Çinin ABŞ və İran ziddiyyətləri kontekstində öz regional və beynəlxalq iqtisadi-siyasi maraqlarını reallaşdırmaq üsulları kimi məsələlər nəzərdən keçirilmişdir. Tədqiqat işində Çinin İran körfəzi dilemmasının mahiyyəti açıqlanmış, bu dövlətin İranla bir çox sahələrdə, xüsusilə, İranın atom energetikasının inkişaf etdirilməsi istiqamətində və hərbi sahədə əməkdaşlığının nəticələri, ABŞ-ın bu əməkdaşlığa reaksiyası və ABŞ-la ziddiyyətlər şəraitində Çin – İran əlaqələrinin inkişaf perspektivləri təhlil edilmişdir.

**Giriş**

Çin və İran arasında münasibətlər mürəkkəb səciyyə daşıyır. Bir tərəfdən, Çin İrana əməkdaşlıq yolu ilə maraqlarının birlikdə reallaşdırılması mümkün olan ölkə kimi baxır. Digər tərəfdən, Çinin 1978-ci ildən başlanan uğurlu inkişaf kursu ABŞ-la müsbət münasibətlərin saxlanmasını nəzərdə tutur (16, s.69). Belə ki, Pekin İrana Çinlə ümumi maraqları olan bugünkü və gələcək əməkdaş kimi baxsa da, Çin liderlərinin hələ 1978-ci ildən gəldikləri qərara əsasən, kommunist Çinin sürətli inişafı üçün kapitalist dünyasının xarici ixrac bazarları, kapital, texnologiyalar, elmi bilikləri və nou-haudan geniş istifadəyə ehtiyacı olduğundan, qlobal kapitalist sistemində liderlik edən Amerika ilə dostluq münasibətlərini saxlaması zəruridir (16, s.70).

SSRİ-nin dağılmasından sonra bu məsələ daha da aktuallaşdı. Belə ki, bu dövlətin dağılmasından sonra Çin ABŞ-ın növbəti hədəfi olmaqdan ehtiyat edirdi. Çünki Birləşmiş Ştatlar dünyada qalan son kommunist dövlətini də aradan qaldırmağa çalışacaqdı. Bu, Pekinin ABŞ-la düşmənçilikdən yayınmaq üçün ehtiyatlı siyasət yürütməli olduğu anlamına gəlirdi. Eyni zamanda Pekin Tehranla əməkdaşlıq əlaqələrini qurban veməkdən də çəkinirdi. Baxmayaraq ki, İranla əməkdaşlıq Çinin Vaşinqtonla həyati əhəmiyyətli əlaqələrini zədələyə bilər. Lakin Pekin İran-ABŞ arasında davamlı və getdikcə dərinləşən düşmənçilik kimi reallıqla üzləşməyə məcburdur. Vaşinqton İran-Çin əməkdaşlığının bəzi aspektlərinə etiraz edir. Bir sözlə, Pekin ABŞ-la müsbət münasibətlərin saxlanması və eyni zamanda İranla əməkdaşlığın genişləndirilməsi səyləri arasında tarazlığı saxlamaq məcburiyyətindədir Bu, Çinin İran körfəzi dilemmasıdır (16, s.69, 71).

Çinin maraqları üçün iki təhlükə mövcuddur. Pekinin qarşısında duran əsas məsələ reallaşma ehtimalı az olsa da, mümkün olan iki hadisənin qarşısını almaqdır: Amerika-İran müharibəsi və Amerika-İran ittifaqı. Birinci variant İran körfəzindən Çinə neft daşınmasının qarşısını alacaq, ikinci variant isə İran bazarına investisiya qoymaq arzusunda olan Çin şirkətləri üçün təhlükədir. Bu,

* *T.ü.f.d., dosent, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: aliyevaulker82@hotmail.com*

Çinin İrana münasibətdə ehtiyatlı siyasət yürütməsinin səbəbinin izahıdır. Bu səbəbdən Çin BMT sanksiyaları əleyhinə səs vermiş, İran ilə ticarət əlaqələrini möhkəmləndirmiş və bununla da sanksiyaların gücləndiyi şəraitdə Tehrana iqtisadi təzyiqləri zəiflətməyə çalışmışdır.

Çin siyasi nöqteyi-nəzərdən də ikili maraqlar güdür. Bir tərəfdən, İranın öz nüvə silahını inkişaf etdirmək istiqamətində təşəbbüsü onun maraqlarına uyğun deyil. Digər tərəfdən, nüvə məsələsi ilə bağlı konfliktə Amerikanın regiondakı təsirini məhdudlaşdırmaq vasitəsi kimi baxır (14, s.38).

## I. ABŞ-İran və ABŞ-Çin ziddiyyətləri kontestində Çinin İranla əməkdaşlığı Sanksiyaların tətbiqinin Çinin İranla əməkdaşlığına təsiri

### a) Atom energetkası sahəsində İran-Çin əməkdaşlığı və nəticəsi

1979-cu ildə İranda İslam inqilabının baş verməsi və şah Məhəmməd Rza Pəhləvinin rəhbərlik etdiyi amerikapərəst rejimin devrilməsindən sonra İran və ABŞ arasında gərgin münasibətlərin mövcudluğu məlumdur. İran 1984-cü ildən Amerika tərəfindən "terrorizm sponsoru olan dövlətlər" siyahısına, 1990-cı illərin I yarısında isə "qanunsuz (qanun-qayda tanımayan) dövlətlər" siyahısına daxil edilmişdir (2, s.59). Çinin bu dövlətlə atom energetikası sahəsində əməkdaşlığı ekspertlərin fikrincə, hələ XX əsrin 80-ci illərinin ortalarından başlamışdı. ABŞın bu sahədə təkidlərinə baxmayaraq, İran və Çin nüvə energetikası sahəsində rəsmi əməkdaşlıq müqaviləsi bağladıqlarını inkar edirlər (Bax: 10, s.55). Buna baxmayaraq, iki ölkə arasında bu sahədə faktiki əməkdaşlıq həyata keçirilmişdir. 1985-97-ci illərdə nüvə texnologiyalarının inkişafında İranın əsas əməkdaşına çevrilən Çin uranın hasilatı, konvertasiyası və zənginləşdirilməsi, həmçinin, yanacağın hazırlanması texnologiyası sahəsində İrana yardım etdi (15, s.94). Çin və İran nüvə sahəsində əməkdaşlıq etdiklərini yalnız 1991-ci ildə etiraf etdilər. 1991-ci ilədək İran ilə atom energetikası sahəsində əməkdaşlığına dair fikirlərin əsassız olduğunu bildirən Çinin xarici işlər naziri həmin ilin noyabr ayında ölkəsinin İrana 20 MVt gücündə, çox da böyük olmayan tədqiqat reaktoru satışına dair müqavilə bağladıqlarını etiraf etdi. O, bu avadanlığın yalnız dinc məqsədlərlə (tibbi diaqnostika, fizika sahəsində tədqiqatlar və s.) istifadə olunacağını və AEBA-in təminat sisteminin nəzarətində olacağını dedi (10, s.55). İsfahanda təftişlərin keçirilməsindən sonra AEBA müfəttişlərinin gəldikləri nəticəyə görə, çinlilərin İrana satdığı avadanlıq uranın zənginləşdirilməsi üçün istifadə edilə bilməzdi. Çin reaktorunun gücü nüvə silahı istehsalı üçün zəruri olan miqdarda materialı işləyib hazırlamağa imkan vermirdi. Vaşinqtonda isə bu nəticələrə şübhə ilə yanaşırdılar və İrana yardımları üzündən Çinə təzyiqlər artırdı (15, s.55). Həmçinin, İran və Çin Vaşinqtonun mənfi münasibətinə əhəmiyyət verməyərək, 1995-ci ildə Buşəhrdə, bəzi məlumatlara görə isə Əhvazda, əvvəllər fransız mütəxəssislər tərəfindən hazırlanmış meydançada 300 MVt gücə malik iki yüngül su reaktorlu AES-in tikintisi barədə də saziş imzaladılar (13, s.8). 90-cı illərin əvvəllərində Çinin yardımı ilə Əhvaz rayonunda, Darxovin şəhərində (Xuzistan vilayəti), Karun çayı üzərində tikilməsi planlaşdırılan bu atom stansiyası Esteqlal AES adı ilə də məşhur idi (9). Lakin əldə edilən razılaşmaların həyata keçirilməsi guya 1995-ci ilin sonunda Çin tərəfin texniki və iqtisadi çətinlikləri, son nəticəyə dair fikir ayrılıqları və güman ki, ABŞ-nın da təzyiqləri üzündən 1997-ci ildə dayandırıldı (10, s.56). Bundan sonra İran atom enerjisi əldə etmək istiqamətində işləri öz üzərinə götürməli oldu.

Beləliklə, bir çox dövlətlərin, xüsusilə, Çinin beynəlxalq təşkilatlarda İranı müdafiə etmək və sanksiyalardan qorumaq istiqamətində səylərinə baxmayaraq, 1990-cı illərin ortalarında ABŞ-ın təzyiqi ilə nüvə qurğuları və texnologiyaları ixrac edən ölkələrin hamısı, o cümlədən Çin İranla nüvə energetikası sahəsində əməkdaşlıqdan imtina etdilər (13, s.9). Pekin 1997-ci ildə bu sahədə İranla tam hüquqlu əməkdaşlıqdan imtina etsə də, İranın nüvə proqramının imkişafına müəyyən qədər yardım göstərə bildi.

Bu hadisə bir daha göstərdi ki, iki ölkə arasında əməkdaşlığı yeni güc mərkəzinin formalaşması kimi dəyərləndirmək olmaz, çünki Çin Yaxın Şərq regionunda ehtiyatla davranır, konfliktlərə qarışmaqdan çəkinir. Bunun ən bariz nümunəsi Çinin ABŞ-ın təzyiqləri qarşı geri çəkilərək, İranla nüvə texnologiyaları sahəsində əməkdaşlığı dayandırması oldu.

**b) Sanksiyalar tətbiqinin yeni mərhələsi**

2011-2012-ci illərin sanksiyalarından sonra Fransanın «Total», ingilis–holland «Royal Dutch Shell», Britaniyanın «BP», İtaliyanın «Eni» kimi nəhəng dünya şirkətlərinin İranla əməkdaşlıqdan imtina etməsi ölkəni iqtisadi çöküş həddinə gətirdi (6, s.35). Sanksiyalar rejimi çərçivəsində İran öz resurslarını yeni vəziyyətə uyğunlaşdırmaq üçün səfərbərliyə aldı. Yeni ticarət əməkdaşlarına ehtiyac var idi və bu ehtiyac tezliklə Çinin sayəsində təmin olundu. ÇXR-də əhalinin sayı iqtisadi gücü ilə paralel olaraq artdığından, enerji ehtiyatları ölkənin inkişafı üçün həyati baxımdan vacib amilə çevrilir. Bu nöqteyi-nəzərdən, İran daha bir üstün xüsusiyyətə - ABŞ-la ziddiyyətlərə malik, sərfəli neft mənbəyi kimi çıxış edir. Bir çox ekspertlərin fikrincə, məhz ABŞ və ÇXR rəqabəti İran-Çin əlaqələrinin fəallaşmasının səbəbi idi (7, s.60).

Çinli analitiklər (Tien Venlin, Li Daguan, Liu Qoxua və başqaları) İranın nüvə proqramı ilə bağlı, 2003-cü ildən bəri güclənən beynəlxalq iğtişaşı İran və ABŞ arasında körfəzdə üstünlük uğrunda mübarizə kimi dəyərləndirirlər. Onların fikrincə, ABŞ neft ehtiyatları ilə zəngin körfəzdə hökmranlığa çalışır, İran isə ABŞ-ın körfəzdən çıxmasını və güman ki, özünün bu regionda üstün güc qalmasını istəyir. ABŞ nüvə məsələsindən İranı ona körfəz neftinə nəzarət etmək imkanı vermək yolu ilə "barışığa" məcbur etmək üçün istifadə edir. İran isə ABŞ təhdidlərinə qarşı dura bilmək və İranı "böyük gücə" çevirmək üçün nüvə texnologiyasından istifadə etməyə çalışır. Amerikalı müəllif C.Qarverin qeyd etdiyinə görə, Çinli analitiklər Çinin ABŞ-İran qarşıdurmasının Çinin maraqları üçün nəticələri barədə açıqlama verməkdən çəkinirlər. Lakin bu nəticələri çıxarmaq çətin deyil. Hələ 1973-cü ildə İran şahı ABŞ-ın köməyi ilə İranı körfəzdə "regional polisə" çevirməyə çalışdığı zaman Çin Tehranın irəli sürdüyü, İran körfəzindəki təhlükəsizlik məsələləri ilə yalnız körfəzsahili dövlətlərinin məşğul olması prinsipini müdafiə etmişdi. Bunu "sahil prinsipi" də adlandırmaq düzgün olar. Çinin o zaman İranın körfəzdə üstünlüyünü dəstəkləməsi regionda öz təsirini yayan Sovetlərə qarşı yönəlmişdi. İran İslam Respublikası yarandıqdan sonra – İran-İraq müharibəsi dövründə və İraqa qarşı 1991-ci il müharibəsi başlanarkən də Çin qeyd olunan prinsipi dəstəklədi (16, s.72). Qarverin dediyi kimi, "sahil prinsipi" Çinin yeni, çoxqütblü dünya arzusuna uyğun idi. Lakin 1996-97-ci illərdə Çin-ABŞ münasibətlərində sabitliyin (Çinin İranla nüvə, qanadlı və ballistik raket istehsalı sahəsində əməkdaşlığı dayandırması nəticəsində) yaranmasından sonra Pekin İranın üstünlüyünü açıq şəkildə dəstəkləmək sahəsində ehtiyatla davranmağa başladı (16, s.72).

Tszyan Tszeminin Tehrana səfəri 2001-ci ilin oktyabrında ingilis-Amerika birliyinin talibləri Əfqanıstandan qovmasından, prezident C.Buşun çıxışında İraq, Şimali Koreya ilə yanaşı İranı da "şər oxları"na aid etməsindən dərhal sonra və 2003-cü ildə İraqda hakimiyyət dəyişikliyi uğrunda müharibənin başlanması ərəfəsində oldu. Çünki Amerikanın İran körfəzi regionunda fəal siyasətinin həyata keçirilməsi yolunda maneə məhz İran idi. İran körfəzində ABŞ-a meydan oxumağa və Çinə neft verməyə hazır İranın mövcudluğu Çin üçün mühüm əhəmiyyət kəsb edir. ABŞ İranı nüvə silahı əldə etmək planlarından əl çəkməyə məcbur edə bilərsə və İran nüvə silahı olmayan adi dövlət olaraq qalarsa, ABŞ-ın əsas diqqəti Çinə yaxın və maraqları mövcud olan regionlara yönələcək (16, s.73). Rusiyalı ekspert D.Belyakovun sözlərilə desək, Birləşmiş Ştatlarla konfliktə girən İran Çinə Yaxın Şərqdə öz təsirini yaymaq imkanı yaradır və eyni zamanda da ABŞ-ın hərbi potensialının bir hissəsini Sakit okean regionundan yayındırır" (3).

Çin İranın nüvə energetikasının inkişafına, ABŞ-ın iddiasına görə, bu yolla həm də onun nüvə silahı əldə edilməsi istiqamətində səylərinə yardım etməklə (Çin və İran bu iddiaları qəti olaraq rədd edir, atom sahəsində əməkdaşlığın sülh məqsədi daşıdığını iddia edirlər) yanaşı, bu ölkəyə silah satışını da davam etdirirdi (1, s.4-5).

2004-cü ildə Fransa, Almaniya və Böyük Britaniyanın səyləri sayəsində İran və ABŞ danışıqlar masasına əyləşdi, İran Paris razılaşmasın imzaladı və uranın zənginləşdirilməsi üzrə işləri dayandırmağı öhdəsinə götürdü. Əvəzində Birləşmiş Ştatlar ölkənin Ümumdünya Ticarət Təşkilatına üzvlüyünə mane olmayacağına söz verdi. Lakin 2005-ci ildə Mahmud Əhmədi Nejatın prezident seçilməsi vəziyyəti dəyişdi. 2006-cı ildən onun nüvə proqramını davam etdirmək bəyanatından sonra

ABŞ İranla AB - 3 formatında danışıqlara razı olduğunu bildirdi və 5+1 formatı formalaşdı. Lakin danışıqlar nəticəsiz qaldı.

Qeyd edək ki, Amerikada İrana qarşı sanksiyaların tətbiqi məsələsi məhz Çinlə ABŞ arasında ciddi problemlərin yenidən alovlanması fonunda müzakirə olunmağa başlandı.

Birləşmiş Ştatların (B.Obama administrasiyasının (2009-2017)) 2011-ci ildə Tayvana 6,5 milyard dollar dəyərində silah satması vəziyyəti daha da çətinləşdirdi. Yaranmış gərgin vəziyyəti yoluna qoymaq üçün ilk addım atan Amerikada Çinin valyuta siyasəti kəskin tənqid olundu. Belə ki, dünyada Çin tərəfindən yuanın mübadilə kursunun aşağı salınmasından narazılıq onsuz da böyük olan ticarət defisitinin artmasına və beynəlxalq valyuta sistemində qarışıqlığın davam etməsinə gətirib çıxarmışdı. B.Obamanın 2011-ci ilin iyun ayında Vaşinqtonda Tibetin dini lideri XIV Dalay-lama ilə görüşməsi gərgin münasibətləri daha da pisləşdirdi (4). Qeyd edək ki, Obama 2010-cu ilin fevralında da dini liderlə görüş keçirmişdi.

2013-cü ildə İran prezidenti Həsən Ruhani seçildikdən sonra sələfi M. Əhmədinecatdan fərqli olaraq daha balanslaşmış siyasi kurs həyata keçirməyə başladı. O, ABŞ-ı birbaşa danışıqlara çağırdı. İlk dəfə olaraq Ali dini rəhbər A.Xameneyi də belə danışıqlara mane olmayacağını bildirdi (8, s.119). Ən mühüm uğur isə “altılıq” ölkələri (BMT TŞ-nın 5 daimi üzvü və Almaniya) ilə danışıqların bərpası oldu. Belə ki, 2015-ci il, 14 iyul tarixində İran üçün tarixi bir hadisə baş verdi - “Birgə hərtərəfli fəaliyyət planı” imzalandı. Bu plana əsasən, İranın nüvə proqramı məsələsi tənzimlənir, o cümlədən, sanksiyalarla təzyiq aradan qalxır, SWIFT sistemi bərpa olunur, bütün beynəlxalq və birtərəfli sanksiyalar ləğv olunurdu (6, s.37).

Lakin D.Trampın prezident seçilməsindən sonra vəziyyət dəyişdi. O, 2018-ci ilin may ayının 8-də ABŞ-ın Birgə Hərtərəfli Fəaliyyət Planından çıxdığı barədə memorandum imzaladı.

İndi artıq ABŞ İrandan təkcə nüvə silahlanması proqramının dayandırılmasını deyil, həm də raket proqramı və iranpərəst şiə qruplaşmaları – Livandakı “Hizbullah”, İraq xalq səfərbərliyi qüvvələri, Suriya yerli müdafiə qüvvələri və Yəmən Husilərini (Ənsarullah) müdafiə etmək və maliyyələşdirməkdən imtina etməsini istəyirdi. Ümumi sayı 200 min olan bu silahlı birləşmələr İranın regional hərbi və siyasi gücünün əsasını təşkil edir. Yüksək dəqiqliyə malik qanadlı raketlər də daxil olmaqla raket istehsalı strategiyanın bir hissəsini təşkil edir: İran qeyd edilən qüvvələri bu silahla silahlandırır. Amerikanın qoyduğu şərtlərə əməl edilməsi İranın milyardlarla dollar xərclədiyi bütün hərbi-siyasi strategiyasının ləğvi deməkdir. Ən başlıcası isə İran rejimi ABŞ-a daha artıq güzəştlərə gedilməsini mənasız hesab edir.

### II. Çin və İran arasında hərbi sahədə əməkdaşlığın Çinin ümumi Fars körfəzi regionu ilə bağlı maraqlarında yeri

Çinin İranın əsas silah təchizatçısı olması iki ölkə arasında inkişaf edən əlaqələrin həm regional, həm də qlobal balansa təsir göstərəcək istiqamətdə inkişafı baxımından əhəmiyyətlidir. Çin İrana adi, ənənəvi silahlar satmaqla bərabər, daha önəmli olan uzaq mənzilli raket istehsalı və nüvə-kimyəvi döyüş keyfiyyətini artırması məsələlərində yardım edir.

Yarandığı dövrdən bəri İran İslam Respublikası istər birtərəfli, istərsə də beynəlxalq sanksiyaların müxtəlif formalarının təzyiqi altındadır. İslam İnqilabından dərhal sonra Qərb İrana bütün növ silahların satışına embarqo qoymuşdu. Baxmayaraq ki, İraq-İraq müharibəsi zamanı (1980-88) leqal, yarıleqal və qeyri-leqal şəkillərdə İrana neft əvəzində silah verənlər oldu. Sayı 25-dən artıq olan bu ölkələr arasında İİR-nın düşmənləri olan İsrail və ABŞ da var idi. Bu müharibədən sonra Çin və Rusiya İranın əsas hərbi-texniki əməkdaşına çevrildilər.

ÇXR İİR-na sovet nümunəsində hərbi döyüş texnikası verdi: qırıcı təyyarələr, piyadaların döyüş maşınları, zenit-raket kompleksləri və s. Bundan əlavə, Çin İrana raket qüvvələrinin inkişaf etdirilməsi və raket istehsalı sahəsində ciddi yardım göstərmişdir. Həmçinin, Pekinin yardımı ilə İran Çinin gəmi əleyhinə S-701 (İran variantı “Kövsər” raketləri), S-704 (Nəsr raketləri), S-801 və S-802 (Nur) raketlərinin istehsalını öyrəndi. İİR-nın raket texnikasının inkişafında yeni addım Çinin

DF-21D (300 km mənzilli raketlər bütün İran körfəzini əhatəyə almağa imkan verir) raketləri əsasında hazırlanmış, gəmi əleyhinə ballistik "Xəlic-e fars" raketləri oldu.

Bundan əlavə, Çin və İran hava hücumundan müdafiə radarları tədarükü və istehsalı sahəsində əməkdaşdırlar (12).

Çinin İrana silah satışı və nüvə-kimyəvi silah istehsalı sahəsində yardımlarının Çinin özünə üç əsas faydası vardır. Bunlardan birincisi, silah ticarətinin Çin üçün olduqca əhəmiyyətli bir iqtisadi qazanc mənbəyi olmasıdır. İkincisi, Çinin ABŞ-ın Tayvana silah satışından narahatlığı ilə bağlıdır və Çin ABŞ tərəfindən "Şər oxları" siyahısında yer almış bir ölkəyə silah sataraq bu narahatlığını fəaliyyətində nümayiş etdirir. Üçüncü fayda Yaxın Şərqin neft mənbələri ilə bağlıdır. Regionun neftinin xarici bazarlara çıxarılmasında İranın cənubundakı Hörmüz boğazı strateji əhəmiyyətli su yoludur. Boğazı ciddi nəzartədə saxlayan ABŞ hərbi dəniz qüvvələri Yaxın Şərq və İran neftinin Çinə davamlı axması üçün təhlükə yaradır. Yəni, bölgədə hərbi baxımdan güclü bir İranın varlığı Çin üçün neft axının təhlükəsizliyi baxımından həyati əhəmiyyət kəsb edir (1, s.4-5).

"Foreign policy" analitik nəşrinin yazdığına görə, ABŞ prezidenti Bayden artıq İran və Çin arasında dərinləşən əməkdaşlığın törətdiyi təhlükəyə göz yuma bilməz, çünki Çin İran körfəzində getdikcə daha çox möhkəmlənir. İranın aldığı çox milyardlıq investisiyalar və enerji layihələri Amerika sanksiyalarının əhəmiyyətini azaldır. Amerika kəşfiyyat orqanlarının məlumatına görə, İraqdakı "Eyn əl-Əsəd" Amerika bazasına hücumda (2021) istifadə olunan ballistik raketlərdən ən az biri Çinin raket texnologiyası əsasında istehsal olunmuşdur. Bundan başqa, Amerikanın "Newsweek" jurnalının məlumatına görə, İran Yəməndəki qiyamçı hüsilərə iki min km məsafədə fəaliyət göstərə bilən kamikadze-dronlar vermişdir. Onlardan artıq Səudiyyə Ərəbistanı və BƏƏ-də istifadə edilmişdir (5).

Ümumiyyətlə, İranın iştirakı olmadan nə Pakistan və nə də Əfqanıstanda sabitlik mümkün deyil. Bundan əlavə, Çinin Pakistan və Əfqanıstan sərhəddində yerləşən Xinyan əyalətində müsəlman icmalarının fəaliyyəti ilə əlaqədar Mərkəzi Asiyanın təhlükəsizliyi də strateji məsələdir. Bu səbəbdən Pekin bütün bu məsələlərdə İranla əməkdaşlığa çalışacaq. Yuxarıda qeyd olunan bölgələrlə bağlı nəqliyyatın təhlükəsizliyi məsələsi də Çini narahat etdiyindən, bu ölkə ilə hərbi əməkdaşlığı davam etdirəcək (14, s.40).

**Nəticə**

Qeyd olunanlarla yanaşı, Çinin əsas məqsədi beynəlxalq konfliktlərdə tərəf tutmadan, çox tərəfdaşa malik olmaqla daha çox iqtisadi fayda əldə etməkdir. İqtisadi inkişaf kursu və məqsədləri Çinin İran-ABŞ ziddiyyətlərində ikili siyasət yürütməsini tələb edir. Bunun bir çox əyani sübutları mövcuddur. Məsələn, Çin aralarında sıx əməkdaşlığa baxmayaraq, 2018-ci ildə BMT Təhlükəsizlik Şurasında İranı Yəməndə münaqişə tərəflərindən olan husilərə silah ötürməkdə ittiham edən qətnamə layihəsinin qəbulu zamanı bitərəf qalmağı seçdi. Pekin ABŞ-la münasibətləri gərginləşdirməmək üçün İranın Şanxay Əməkdaşlıq Təşkilatına üzvlük səylərini fəal dəstəkləmir. ABŞ-Çin ticarət müharibəsinin gərgin zamanında Çinin ABŞ-a güzəşt əlaməti olaraq, İrandan neft alışını azaltması müşahidə olundu. Çinin son davranışı barədə ilk məlumat Wall Street Journal tərəfindən yayımlandıqda təəccüb doğurmuşdu, çünki heç kim rəsmi olaraq Tehrana qarşı iqtisadi sanksiyalara əməl etməyən Çinin İran neftini bloklayacağını gözləmirdi (11).

2020-də ABŞ-la ticarət müharibəsinin gərgin dövründə Çin İranla enerji daşıyıcıları ticarətində ABŞ-ın xeyrinə müvəqqəti ləngimə yaratsa da, 2021-ci ilin mart ayında çoxdan haqqında şayiələr yayılmış İran-Çin strateji əməkdaşlıq sazişi (25 illik) imzalandı. Ekspertlərə görə, ABŞ üçün Yaxın Şərqdə ciddi problemlər yaradan bu müqavilənin səbəbkarı Tramp idi, bu ittifaq onun səhvi idi. Hazırki C. Bayden hökuməti qarşısında bu problemin həlli vəzifəsi durur. Lakin bir məsələni də unutmamaq lazımdır: aralarındakı ciddi problemlərə baxmayaraq, Çin Amerika ilə münasibətləri Tehranla əlaqələrindən daha çox qiymətləndirir.

## ƏDƏBİYYAT


1. Özekmekçi M.İ. Türkiye'nin doğu sinirinda yeni bir güç: Çin [Elektron resurs]: http://dispolitikaforumu.com/wp-content/uploads/2013/05/cin.pdf 2,4-5
2. Бартенев В. (2009). Концепция «государств-изгоев» во внешней политике США // Международные процессы, № 1 (январь-апрель), http://www.intertrends.ru/nineteenth/008.htm, s.59
3. Беляков Д. Целятся в Иран, а бьют по Китаю [Elektron resurs]: 13 Января, 2020, https://www.sonar2050.org/publications/celyatsya-v-iran-a-byut-po-kitayu/
4. Браун К. Китай, Иран и США [Elektron resurs]: Chatham House, Великобритания, 25.02.2010, https://inosmi.ru/world/20100225/158319434.html
5. Добров Д. Китай и Иран преподали США урок [Elektron resurs]: 24 января 2022 13:16, https://inosmi.ru/20220124/iran-252683053.html
6. Ивин А.В. (2018). Энергетическая политика Исламской Республики Иран, М.: Издатель Воробьев А.В., Москва, 120 с.
7. Лексина Е.А. (2015). Ирано-китайские отношения в геополитическом треугольнике США-Иран-КНР: противоречия и перспективы // Актуальные проблемы современных международных отношений, с.56-63
8. Мамедова Н.М., Дунаева Е.В., Федорова И.Е. (2013). Иран после президентских выборов // Свободная мысль, №5, с. 108-123
9. Мельников В. Ядерная программа Ирана / РИА Новости, 16.01.2017, https://ria.ru/20170116/1485682992.html
10. Пастухова Г. (2009). Сотрудничество Китая и Ирана: взаимные интересы, тактические и стратегические // Индекс безопасности, № 2 (89), Том 15, с. 49-63
11. Кучер Е. Как Трамп грозит Китаю и почему платить за это снова будут американцы [Elektron resurs]: 06 Мая 2019, https://tsargrad.tv/articles/kak-tramp-grozit-kitaju-i-pochemu-platit-za-jeto-snova-budut-amerikancy_198061
12. Сажин В. (2020). США пытаются продлить оружейное эмбарго против Ирана // Журнал «Международная жизнь» (учредитель МИД РФ), 20.05.2020, https://interaffairs.ru/news/show/26384
13. Хлопков А. (2001). Иранская ядерная программа в российско-американских отношениях / Научные записки Пир-центра №18, Москва, 49 с.
14. Эльтс Н. (2015). Четыре империи в борьбе за Иран, Bachelor's Thesis, Tallinn University of Technology, Tallinn, 53 s.
15. Berger B. and Schell Ph. (2013). Toeing the Line, Drawing the Line: China and Iran's Nuclear Ambitions // China Report 49:1, pp. 89–101
16. Garver J. (2013). China–Iran Relations: Cautious Friendship with America's Nemesis, Professor, School of International Affairs, Georgia Institute of Technology,Atlanta, Georgia, USA// China report 49 : 1, pp. 69–88

## *РЕЗЮМЕ*

***Улькер АЛИЕВА-АБДУЛЛАЕВА***

### *Политические маневры Китая против США и Ирана: Дилемма Персидского залива*

***Ключевые слова:*** *американо-китайские отношения, американо-иранский конфликт, санкции против Ирана, торговые войны*

В статье рассматривается влияние американо-китайского и американо-иранского противоречий на иранскую политику Китая, а также способы реализации Китаем своих региональных и международных экономических и политических интересов в контексте американо-иранского конфликта. В исследовании раскрывается суть дилеммы Персидского залива, анализируются результаты сотрудничества Китая с Ираном во многих областях, особенно в области развития ядерной энергетики Ирана и военного сотрудничества, реакция США на это сотрудничество и перспективы развития китайско-иранских отношений.

## *SUMMARY*

***Ulker ALIYEVA-ABDULLAYEVA***

### *China's political maneuvers against the US and Iran: The Dilemma of the Persian Gulf*

***Keywords:*** *US-China relations, US-Iranian conflict, sanctions against Iran, trade wars*

The article examines the influence of the American-Chinese and American-Iranian contradictions on China's Iranian policy, as well as the ways in which China realizes its regional and international economic and political interests in the context of the American-Iranian conflict. The study reveals the essence of the Persian Gulf dilemma for China and analyses the results of China-Iran cooperation in many areas, especially the development of Iran's nuclear energy and military cooperation, the US reaction to this cooperation, and the prospects for the development of Sino-Iranian relations.